YAN LÖF

# Qırmızı alma haqqında nağıl

Tərcüməçi:
Cəmilə Qaravəliyeva Sevigin

QANUN NƏŞRİYYATI



# Sagan om det röda äpplet

JAN LÖÖF






Biri vardı, biri yoxdu, zolaqlı kostyumlu bir cənab vardı. Günlərin bir günü o, meyvə mağazasının yanından keçirdi.

"İndi şirəli, dadlı bir alma yemək heç də pis olmazdı", – deyə zolaqlı kostyumlu cənab fikirləşərək mağazaya girdi.




Satıcı bu cənabın görünüşünə görə onun sadəlövh bir adam olduğunu düşündü: belə adamları aldatmaq çox asan olur. Ona görə də yaşıl plastmas bir alma götürüb ona uzatdı.

– Bu, həqiqətən də, çox gözəl bir almadır, sadəcə, yeməzdən əvvəl onu bir az günəşin altında saxlayın ki, yetişsin, – satıcı istehzayla gülüb, dediklərinə inanan müştərini yola saldı.




Zolaqlı kostyumlu cənab getdikdən sonra hiyləgər satıcı həyətə çıxdı və mağazanın arxasında yerləşən bağçaya tərəf getdi. Burada satıcını ancaq bir şey maraqlandırırdı: nadir növdən olan böyük, gözəl qırmızı alma! Satıcı bu almanın üzərində əsir, hər gün ona qulluq edirdi. Bu alma fermerlər arasında keçiriləcək meyvə sərgisində, sözsüz ki, birinci yerə və mükafata layiq görüləcəkdi!




Zolaqlı kostyumlu cənab isə evinə tələsirdi. Onun aldığı alma heç bir mükafata layiq görülən deyildi, axı o, plastmasdır. Amma... zolaqlı kostyumlu cənab bundan xəbərsiz idi.



– Yaxşı, gözləmək lazımdırsa, gözləyərik, – deyə düşünüb almanı pəncərənin qabağına, günəş altına qoydu ki, tez yetişsin.



Özü isə sevimli məşğuliyyətinə – qədim yelkənli gəmi modeli düzəltməyə başladı. O, işinə elə aludə olmuşdu ki, ətrafında baş verənləri nə görür, nə də eşidirdi.



Onun başı işinə qarışdığı üçün tutuquşunun təsadüfən almanı qonşuluqdakı nənənin başına saldığını görmədi.

– Oy! – deyə nənə başına alma düşəndə elə qışqırdı ki, onun balaca pişiyi qorxusundan ağaca dırmaşdı.